

## AKADEMİK
## ARİF Mir CƏLAL OĞLU PAŞAYEV - 85

Azərbaican Milli Elmlər Akademiyasının həqiqi üzvü Arif Mir Cəlal oğlu Paşayev Azərbaycanı dünyada tanıtdıran alimlərimizdəndir. O, Odessa Elektrotexnika Rabitə İnstitutunu radiofizika ixtisası üzrə bitirib. Akademik A. Paşayevin əsas elmi istiqaməti yarımkeçiricilər fizikası və texnikasıdır. O, ilk dəfə olaraq yarımkeçirici materialların elektrofiziki parametrlərinin kontaksız ölçmə üsullarının elmi əsaslarını ışləmiş, bu üsulları reallaşdıran cihazlar, yüksək həssaslığa malik Qann effekti tədqiq edən qurğu yaratmışdır. Onun rəhbərliyi altında yüksək temperaturlu ifratkeçirici Y-Ba-Cu-O sistemlərinin infraqırmızı əksetdirmə spektrləri, onların radiasiyaya davamlılığı və s. öyrənilmiş, orijinal, proqram təminatlı qurğu, yeni növ temperatur, təzyiq, güc və vibrasiya vericiləri yaradılmış. Bu cihazlar neft maşınqayırmasında, müdafiə sənayesində, çevik nəzarət sistemləri yaradılanda istifadə olunur. Akademik A.Paşayev 1996-cı ildən "Azərbaycan Hava Yolları" Dövlət Konserni Milli Aviasiya Akademiyasının rektoru vəzifəsində çalışır. İlk dəfə olaraq Arif müəllim elmi, təhsili və istehsalatı vəhdətdə inkişaf etdirərək müasir dünya standartlarına uyğun ali təhsil ocağı yaratmağa müvəffəq olmuşdur. Arif muəllimin rəhbərliyi altında Azərbaycanda ilk dəfə olaraq radio dalğalarla idarə olunan, vertolyotun aparıcı vintinin vəziyyətinə nəzarət edən elektron qurğu, pilotsuz uçuş aparatı, minaların axtarılması üçün radio idarəolunan robot yaradılmış. A. Paşayev 400 elmi əsərin, 35 monoqrafiyanın və 40-dan artıq ixtiranın müəllifidir. O, yüksək nailiyyətlərinə görə "SSRİ İxtiraçısı" medalına, Y.Məmmədəliyev adına medala, İngiltərə Beynəlxalq Bioqrafıya Mərkəzinin qızıl medalına və aviasiya mütəxəssislərinin hazırlanmasında və tədris prosesinin təşkili sahəsində xüsusi xidmətlərinə görə Dövlətlərarası Aviasiya Komitəsinin (MAK) qızıl medalına layiq görülmüş. Akademik A.Paşayev Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "ŞÖHRƏT" və "İSTİQLAL" ordenləri ilə təltif olunmuş.